# Sərhədçilər ulu öndəri ehtiramla yad etdilər

Dövlət Sərhəd Xidmətində (DSX) xalqımızın xilaskarı, müasir Azərbaycan dövlətinin banisi Heydər Əliyevin 93-cü ildönümü münasibətilə tədbirlər keçirilir. Xüsusi tədbirlər planına əsasən, DSX-nin hərbi hissələrində yerləşən ideoloji mərkəzlərə, rayonlarda yerləşən Heydər Əliyev mərkəzlərinə sərhədçi hərbi qulluqçuların ekskursiyaları təşkil olunur, hərbi hissələrdə konfranslar, tematik axşamlar, disputlar keçirilir, ulu öndərin nəsillərə nümunə olan həyat və fəaliyyəti barədə filmlər nümayiş etdirilir, mühazirələr oxunur.





Belə tədbirlərdən biri DSX-nin Akademiyasında təşkil olunmuşdu. Öncə Dövlət himni səsləndikdən sonra ulu öndərin əziz xatirəsi ehtiramla yad edilmişdir.

Tədbirdə çıxış edən Milli Məclisin deputatı Elman Nəsirov dövlətçilik tariximizdə müstəsna yeri olan ulu öndər Heydər Əliyevin müdrik siyasəti, dönməz əqidəsi və tarixi uzaqgörənliyi sayəsində milli dövlətçilik ideyasının gerçəkləşdirilməsini, müasir Azərbaycan dövlətinin qurulmasını və xalqımızın müstəqillik arzusuna çatmasını qeyd etmişdir. Heydər Əliyevin məqsədyönlü fəaliyyəti nəticəsində Azərbaycanın özünün geostrateji, iqtisadi və mədəni potensialından istifadə edərək Şərqlə Qərb arasında etibarlı körpü rolunu oynamağa başlaması və dünyanın ən dinamik inkişaf edən ölkələrindən birinə çevrilməsi bildirilmişdir. Vurğulanmışdır ki, Heydər Əliyevin imzaladığı fərman və sərəncamlarla, DSX-nin rəhbər heyəti ilə keçirdiyi görüşlərdə verdiyi tapşırıqlarla milli sərhəd siyasətimiz formalaşmış, ölkəmizin sərhəd mühafizəsinin inkişaf strategiyası müəyyənləşdirilmişdir. Bu gün Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə istər daxili, istərsə də xarici siyasət sahəsində əldə edilən uğurların ulu öndərin zəkasının təcəssümü, əmanət qoyub getdiyi ideyalarının təntənəsi olduğu minnətdarlıq hissi ilə xatırlanmışdır.

Tədbirin sonunda ulu öndərin həyat və fəaliyyətindən bəhs edən sənədli film nümayiş olunmuşdur.

* * *

Ulu öndər Heydər Əliyevin 93-cü ildönümü münasibətilə daha bir tədbir - "Heydər Əliyev Azərbaycan dövlətinin qurucusudur" mövzusunda konfrans DSX-nin Sahil Mühafizəsində keçirilmişdir. Konfransda Milli Məclisin deputatları Musa Qasımlı, Əflatun Amaşov, Tahir Mirkişili, "Srategiya" jurnalının redaktoru İbrahim Əliyev, sərhədçi zabit, gizir, əsgər və ictimaiyyət nümayəndələri iştirak etmişlər.

Dövlət Sərhəd Xidmətinin nümunəvi Hərbi Orkestrinin müşayiəti ilə Dövlət himni səsləndikdən sonra ümummilli liderin əziz xatirəsi ehtiramla yad edilmişdir.

Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsinin rəisi general-mayor Əfqan Nağıyev "Heydər Əliyev Dövlət Sərhəd Xidmətinin yaradıcısıdır" mövzusunda məruzə ilə çıxış edərək Heydər Əliyevin Dövlət Sərhəd Xidmətinin yaradılması barədə imzaladığı fərmanla Azərbaycanın sərhəd mühafizəsinin müasir tələblər səviyyəsinə qaldırılması üçün əlverişli zəmin yaradılmasını, ulu öndərin ölkəmizin dəniz sərhədlərinin mühafizəsinə xüsusi qayğı göstərməsini xatırlatmışdır.

Konfransda "Heydər Əliyev şəxsiyyəti Azərbaycan dövlətçiliyinin parlaq simvoludur" və "Heydər Əliyev Azərbaycan dövlətinin qurucusudur" mövzularında məruzələr dinlənilmiş, çıxışlar olmuşdur. Çıxış edənlər ulu öndərin Azərbaycan dövləti və Azərbaycan xalqı qarşısındakı misilsiz xidmətlərindən danışmış, Vətəninə hədsiz məhəbbət, xalqının tarixinə, keçmişinə, mədəniyyətinə, milli-mənəvi dəyərlərinə böyük sevgisindən geniş söhbət açmışlar. Ulu öndərin dövlət başçısı olduğu illərdə Azərbaycan xalqının keçdiyi böyük tarixi yola nəzər salınmış, görkəmli dövlət xadiminin respublikamızın güclü iqtisadi, sosial və hərbi potensialının yaradılması istiqamətindəki əvəzsiz xidmətləri minnətdarlıq hissi ilə yad edilmişdir.

***"Azərbaycan"***